AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ MƏKANIN İFADƏ VASİTƏLƏRİ

İxtisas: 5714.01 – "Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik"

Elm sahəsi: Filologiya elmləri

İddiaçı: **Lamiə Tahir qızı Muğalova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2026

Dissertasiya işi Gəncə Dövlət Universitetinin Praktik xarici dillər kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
Məsməxanım Yusif qızı Qazıyeva

Rəsmi opponentlər: filologiya elmləri doktoru, dosent
Bənövşə Güloğlan qızı Məmmədova

filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
Güney Asif qızı Məhərrəmova-Ağayeva

filologiya elmləri üzrə fəlsəfə doktoru
Aysel Məhəmməd qızı Şabanova

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Slavyan Universiteti nəzdində fəaliyyət göstərən FD 2.13 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: filologiya elmləri doktoru, professor
Fikrət Fətiş oğlu Cahangirov

Dissertasiya şurasının elmi katibi: filologiya elmləri üzrə fəlsəfə doktoru
Suad Arif qızı Əfəndiyeva

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
Leyla Orxan qızı Vəzirova

İŞİN ÜMUMİ SƏCİYYƏSİ

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Məkan real gerçəkliyin ən vacib amili olub bütün mövcudluğun və ya substansiyaların, obyekt və subyektlərinin yerləşmə, fəaliyyət, qarşılıqlı təsirdə və münasibətdə olduqları mühitdir və bu mühit olmadan real gerçəkliyin özü də yoxdur. Məkan geniş və sonsuz olduğundan lokallaşır, onun hüdudları baş verən hadisələrə, subyektlərin bu hadisələrdə iştirakına görə məhdudlaşır, daralır, genişlənir və s. Bütün bu proseslər həm məkan qavramı, həm də hadisələrin başvermə anında insanın məkana münasibəti ilə formalaşır. Mahiyyətinə görə sonsuz olub zamanla vəhdət təşkil edən məkanda lokallaşma güclüdür. Bununla yanaşı, hər bir etnosun məkan qavramının spesifik xüsusiyyətləri vardır ki, bu xüsusiyyətlər dil daşıyıcısının məkanı ifadə etmək vərdişlərinə təsir göstərir. Dil real gerçəklikdə mövcud olan hər şeyi və baş verən bütün hadisələri ifadə etmək imkanına malikdir.

Öz mahiyyətinə görə, dünyanın məkan mənzərəsi parametrlərinə görə identik olsa da milli spesifikliyi ilə seçilir və bu spesifiklik dilin bütün yaruslarına nüfuz edir. Bu baxımdan məkanın ifadə vasitələrinin həm müqayisəli aspektdə öyrənilməsinin, həm də onun linqvokulturoloji parametrlərini müəyyənləşdirmək cəhətdən müasir dövr linqvistikasında mühüm əhəmiyyət kəsb edir.

Mətn kateqoriyasının funksionallığının dil materialı əsasında öyrənilməsi, onun verballaşma üsullarının təyin olunması, kontekst və mətn daxilində implisit məkan münasibətlərinin qurulma mexanizmlərinin müəyyənləşdirilməsi və aydınlaşdırılması xüsusi əhəmiyyət kəsb edən linqvistik məsələlər dairəsinə daxil olur. Müxtəlifsistemli dillərdə məkanın bədii mətndə təsviri, onun struktur xüsusiyyətləri və fərqli dillərdə ifadə olunma prinsipləri diqqəti cəlb edən tədqiqat mövzusudur.

İngilis və Azərbaycan dillərində eyni bədii mətndə məkanın ifadə vasitələrinin qarşılaşdırılması və tutuşdurma təhlili belə vahidlərin funksionallıq özəlliklərini, spesifikasını açmağa kömək edir.

Hər bir dildə məkanın ifadə vasitələri geniş spektrə malikdir. Məkanı ifadə etmək üçün leksik və qrammatik vasitələrdən, eləcə də

onların birləşmələrindən istifadə olunur. Linqvistikada hələ də həllini tapmamış məsələlərdən biri məkan münasibətlərini ifadə edən vasitələrin universal və standart təsnifidir.

Azərbaycan dilçiliyində və germanistikasında məkanın və məkan münasibətlərinin ifadə vasitələri xüsusi tədqiqat obyekti olmamışdır. Bu dilin hal sisteminin araşdırılması zamanı sistemin qrammatik və məkani hallar kimi qruplaşdırılması aparılmış, məkani halların ifadə etdikləri mənaların müəyyənləşdirilməsinə cəhdlər edilmişdir, qrammatik hallara ayrıca tədqiqat işi həsr olunsa da, məkani hallar bir yarımsistem şəklində öyrənilməmişdir. Bundan əlavə Azərbaycan dilinin məkan ifadə edən vasitələri, semantik məkan sahəsi də tədqiq edilməmişdir. İngilis və Azərbaycan dili materialları üzrə bu məsələ müqayisəli araşdırma mövzusu da olmamışdır. Bütün bunlar mövzunun aktuallığını şərtləndirir.

Tədqiqatın obyekti və predmeti. Tədqiqatın obyektini ingilis və Azərbaycan dillərində məkan məzmununu ifadə edən dil vasitələri təşkil edir.

Tədqiqatın predmeti real gerçəklikdə mövcud olan məkan münasibətlərinin dildə ifadə olunma xüsusiyyətlərini aydınlaşdırmaq, məkanın bir dildəki ifadə vasitəsinin başqa dildə verilmə qarşılıqlarını müəyyənləşdirmək, məkanın ifadəsnin spesifik cəhətlərini açmaqdır.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqatın əsas məqsədi ingilis və Azərbaycan dillərində məkanın ifadə vasitələrinin təyini və tədqiqidir. Qarşıya qoyulmuş əsas məqsədin həyata keçirilməsi üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- gerçəkliyin konseptual və dil mənzərəsində məkan münasibətlərini aydınlaşdırmaq, məkanın dildə ifadə olunma tələblərini təyin etmək;
- məkan kateqoriyasının dil və nitq materialında üzə çıxmasının səbəblərini və xüsusiyyətlərini öyrənmək;
- ünsiyyətin məkan daxilində reallaşma aspektlərini nəzərdən keçirmək, məkan münasibətlərinin dildə verballaşmasına aid linqvistik baxışların, eləcə də məkanın ifadə vasitələrinin tədqiqinə yanaşma üsullarının təhlilini vermək;

- kommunikaksiya vahidləri arasında məkan əlaqələrini tədqiq etmək;

- ünsiyyət zamanı məkanda lokallaşma və yerdəyişmə hadisələrinin spesifikasını öyrənmək;

- hadisə və proseslər məkan daxilində müəyyən zaman çərçivəsində baş verməsini nəzərə alaraq, məkan-zaman münasibətlərinin vəhdətini təzahür etdirən vasitələri müəyyənləşdirmək;

- müxtəlifsistemli dillərin daşıyıcılarının məkan qavramının spesifik xüsusiyyətləri, etnolinqvistik, linqvokulturoloji parametrlərini təyin etmək;

- müəyyən zaman anında konkret məkanda olmaq, məkanı dəyişmək, məkən daxilində fəaliyyətdə olamaq, məkanda oriyentirdən asılı olaraq yerləşmə və yerdəyişmənin səciyyəvi xüsusiyyətlərini araşdırmaq;

- müxtəlifsistemli dillərdə məkanın leksik-semantik ifadə vasitələrini təyin etmək, onların dildə işlənmə xüsusiyyətlərini müqayisəli şəkildə təhlil etmək;

- məkanın sahə kimi modelləşdirmək, Azərbaycan və ingilis dillərinin arsenalında məkan münasibətlərinin və əlaqələrinin bütün məna çalarlarını ifadə etmək üçün mümkün çoxsaylı vasitələri təyin etmək;

- Azərbaycan dilində məkani hallarda ifadə olunan məkan münasibətlərinin xüsusiyyətləri aydınlaşdırmaq və onların ingilis dilində qarşılıqlarını təyin etmək;

- ingilis dilindəki məkan bildirən sözönlərinin semantik xüsusiyyətlərini araşdırmaq və onların Azərbaycan dilində qarşılıqlarını təyin etmək;

- müxtəlifsistemli (ingilis və Azərbaycan) dillərdə məkanın sintaktik ifadə vasitələri tədqiq etmək.

Tədqiqat metodları. Tədqiqat işində müqayisəli, təsviri, kontent təhlili və funksional-semantik sahə metodlarından istifadə edilmişdir.

Müdafiəyə çıxarılan əsas müddəalar:

1. Məkan kateqoriyasının dil baxımından tədqiqi subyekt, obyekt, üçölçülük, uzunluq, hərəkət kimi fəlsəfi, hesablama nöqtəsi,

müşahidəçinin mövqeyi, əlavə oriyentir kimi psixoloji kateqoriyalarla, linqvistik məkan kateqoriyası sintezi əsasında yerinə yetirilməlidir.

2. Məkanın dildə ifadəsi məkan mənalı leksik vasitələr, məkani hallar, məkan sözönləri, yer zərfləri, yer zərflikləri, yer budaq cümlələri, habelə məkanda lokallaşma və yerdəyişmə ifadə edən linqvistik konstruksiyalar üzrə reallaşır.

3. Məkan horizontal və şaquli müstəvilərin ümumi bir nöqtədə kəsişərək üçölçülü fəza yaradır. Bununla yanaşı məkan bəzən xətti struktur, bəzən maddi nöqtə kimi təsəvvür olunur. Bütün bu hallar dildə öz ifadəsini tapır.

4. Müasir Azərbaycan dilində məkan yer bildirən leksik vasitələrlə, yer zərfləri, yer zərflikləri, məkani hallar, yer budaq cümlələri, habelə məkan münasibətlərini göstərən başqa sintaktik konstruksiyalarla ifadə olunur.

5. Müasir ingilis dilində məkan yer bildirən leksik vasitələrlə, yer zərfləri, yer zərflikləri, məkan sözönlü birləşmələr, yer budaq cümlələri, habelə məkan münasibətlərini göstərən başqa sintaktik konstruksiyalarla ifadə olunur.

6. Zərflər predmetin (subyektin) yerdəyişmə istiqamətini və lokallaşma yerini ifadə edir.

7. Feillər məkan semantikalı sözönlü-hal birləşmələrini idarə etməklə məkan daxilində yerdəyişmə və yerləşməni, bir məkandan digərinə keçidi ifadə etməkdə iştirak edir.

Tədqiqatın elmi yeniliyi. Azərbaycan dilçiliyində ilk dəfə olaraq dil materialında məkan münasibətlərinin ifadə üsulları və vasitələri ingilis dili ilə müqayisəli şəkildə öyrənilir. Tədqiqatda Azərbaycan dilindəki məkanı hallarla ifadə olunan məkan münasibətləri ilə, məkan bildirən sözlərlə məkanın ifadə olunması arasında oxşar və fərqli cəhətlər araşdırılır. İngilis dilində məkanı ifadə edən vasitələrin Azərbaycan dilində qarşılığının təyin olunması üsulları öyrənilir. Bundan başqa, məkan təsvirləri bədii mətn nümunələri əsasında təhlil edilir.

İşdə məkanın və informativlik kateqoriyasının tədqiqinə yeni inteqrativ yanaşma həyata keçirilir. Bədii əsərlərində bu kateqoriyaların birgə fəaliyyət xüsusiyyətləri müəyyən edilir.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Tədqiqatın nəzəri əhəmiyyəti məkan kateqoriyasının dil aspektindən öyrənilməsidir. İlk dəfə olaraq Azərbaycan dilinin materialları əsasında məkan münasibətləri kompleks şəkildə tədqiq olunur, predmetin oriyentirlə müqayisədə lokallaşmasının və məkanda yerdəyişməsinin dil vasitələri ilə ifadə olunma xüsusiyyətləri öyrənilir, bu münasibətlərin bildirilməsində istifadə olunan vasitələrin birləşmə imkanları, onların semantikası nəzəri planda şərh olunur.

Dissertasiyada əldə olunmuş nəticələr Azərbaycan və ingilis dilinin tədrisində, məkan münasibətlərinin dildə ifadəsinə dair seminar və mühazirələrdə istifadə oluna bilər. Material məkan ifadə edən leksik vasitələrin, sintaktik konstruksiyaların ikidilli (ingilis-Azərbaycan; Azərbaycan ingilis) lüğətlərinin tərtibində tətbiqini tapa bilər.

Aprobasiyası və tətbiqi. Dissertasiyanın əsas müddəaları respublika və beynəlxalq konfranslarda oxunan məruzələrdə, respublikada və xaricdə nəşr edilən elmi məcmuələrdə əks olunmuşdur.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı. Dissertasiya işi Gəncə Dövlət Universitetinin Praktik xarici dillər kafedrasında yerinə yetirilmişdir.

Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi. Dissertasiya işi giriş, 3 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir. Dissertasiyanın Giriş hissəsi 6 səhifə olmaqla 10810 işarə, I fəsil 35 səhifə olmaqla 66358 işarə, II fəsil 36 səhifə olmaqla 66048 işarə, III fəsil 29 səhifə olmaqla 53332 işarə, Nəticə hissəsi 4 səhifə olmaqla 6303 işarədən ibarətdir. Dissertasiyanın ümumi həcmi (titul səhifəsi, mündəricat, istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla) 132 səhifə – 202851 işarədir.

İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın işlənmə dərəcəsi, obyekti və predmeti, məqsəd və vəzifələri, metodları müəyyənləşdirilir, müdafiəyə çıxarılan əsas müddəaları şərh edilir, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və strukturu haqqında məlumat verilir.

Tədqiqatın üç paraqrafdan ibarət I fəsli **"Gerçəkliyin konseptual və dil mənzərəsində məkan münasibətləri"** adlanır.

"Məkan ontoloji kateqoriya kimi" adlanan birinci paraqrafda qeyd edilir ki, dilçilikdə məkan kateqoriyası koqnitiv linqvistikada, mətn dilçiliyində, mətnin qrammatikası, mətn nəzəriyyəsi, mətnin filoloji təhlili və başqa sahələrdə öyrənilir. Koqnitiv linqvistikada məkan mədəniyyətin mühüm konsepti kimi qiymətləndirilir. V.A.Maslova dilin konsept sahəsini tədqiq edərək bu qənaətə gəlmişdir ki, məkan konsepti zaman və kəmiyyətlə birlikdə mədəniyyətin fundamental konseptidir.[1]

Y.S.Yakovleva göstərir ki, rus dil qavramında məkan mənzərəsi heç bir fiziki-həndəsi proobrazla eyniyyət təşkil etmir. Məkan obyektlərin doldurulduğu sadə həcm deyil, əksinə, o, obyektlərlə formalaşır və həmin obyektlərə münasibətdə ikincidir.[2]

Məkan və mətn münasibətləri probleminin hər cür məkan və mətn üçün eyni şəkildə həll olunmaması qanunauyğundur. V.N.Toporov belə hesab edir ki, bu münasibətin bədii mətnlər əsasında təyini daha mürəkkəb və çətindir. Eyni fikri dini, dini-fəlsəfi və mifoloji mətnlər haqqında da söyləmək mümkündür.[3]

Göründüyü kimi, mətnin tədqiqinə müxtəlif yanaşmalar mətn məkanının öyrənilməsində də fərqli istiqamətlərin meydana çıxmasına zəmin yaratmışdır. Belə istiqamətlərdən biri məkan-zaman kateqoriyasının reallaşmasının model təsəvvürüdür. Bu zaman məkan və zaman modellərinin semantik və ontoloji modellərinin müştərəkliyi əsas götürülür.

Funksional qrammatikada lokallıq və lokativlik sinonim mənada işlədilir. *"Biz lokativliyi semantik kateqoriya kimi təqdim edirik. O, məkan təsəvvürünün dildə ifadəsidir və funksional-semantik sahə kimi məkan münasibətlərinin ifadəsi zamanı dilin*

---

[1] Маслова, В.А. Когнитивная лингвистика: учебное пособие / В.А.Маслова. – Минск: ТетраСистемс, – 2008. – с.28

[2] Яковлева, Е.С. Фрагменты русской языковой картины мира (модели пространства, времени и восприятия) / Е.С.Яковлева. – Москва: Гнозис, – 1994. – с.42

[3] Топоров, В.Н. Пространство и текст / В.Н.Топоров. – Москва: Изд. центр «Академия», – 2003. – с.121

müxtəlif səviyyə vahidlərini və onların qarşılıqlı əlaqəsini ehtiva edir.”[4]

Məkan kateqoriyasının dil ifadə vasitələrinin daha tam təsviri zamanı məkan müştərəkliyi və məkan fərqliliyi anlayışlarından istifadə olunur.[5] Məsələn, *meşədə, meşədən, meşə ilə, meşənin içindən* və s.

Lokum və lokallaşan obyekt arasında münasibət tipi predmetin lokumda yerləşməməsi, yerləşməyəcəyi ilə bağlıdır. Eyni zamanda hərəkətin ifadəsi prosesində predmetin lokumda olması və ya ora daxil olub-olmaması haqqında məlumatın yoxluğu da lokumla predmetin məkan münasibətlərini nəzərdə tutur. Bəzi hallarda bu münasibət kommunikasiya üçün irrelevant olur. Məkan müştərəkliyini ifadə edən vasitələr, məkan fərqliliyini ifadə edən vasitələrini əvəz edə bilmir.

“Məkan müştərəkliyi” anlayışı, fikrimizcə, bir qədər mücərrəd və qeyri-müəyyəndir. Çünki lokum və predmet məkan baxımından fərqli mahiyyətlidir. “Meşədə” söz-formasında lokum meşədir və hansı obyektin, yaxud subyektin bu lokumda yerləşməsi informasiyası ötürülür. Meşə məkanın özüdür. Ona görə də onun predmetin yerləşmə məkanı ilə müştərəkliyi, eyniliyi söhbət mövzusu olmur.

Son dövrlərdə koqnitiv tədqiqatlarda məkan leksikası, daha doğrusu, obyektlər, məkan və zaman, yol, dairə tipli məkanların təsviri vahidləri,[6] məkan parametrlərinin adları,[7] məkan sifətləri,[8]

---

[4] Гак, В.Г. Функционально-семантическое поле предикатов локализации / Теория функциональной грамматики. Локативность. Бытийность. Посессивность. Обусловленность. / В.Г.Гак. – Санкт Петербург: Наука, – 1996. – с. 6.

[5] Всеволодова, М.В. Способы выражения пространственных отношений в современном русском языке / М.В.Всеволодова, Е.Ю.Владимирский. – Москва: Либроком, – 2009. – с.9

[6] Кубрякова, Е.С. Язык пространства и пространство языка // Известия РАН. Серия литературы и языка, – 1997. т.56, №3, – с.22.

[7] Семёнова, С.Ю. О некоторых свойствах имен пространственных параметров // – Москва: Логический анализ языка. Языки пространств, – 1997. – с.117.

[8] Богуславская О.Ю. Динамика и статика в семантике пространственных прилагательных // – Москва: Логический анализ языка. Языки пространств, – 1997. – с. 20.

yaxın-uzaq mənalı zərflər,[9] məkan lokallaşmasının müəyyən növünü ifadə edən feillər[10] və s. öyrənilmişdir. Məkan önlükləri üzrə ayrı-ayrı dillərin materialları əsasında araşdırmalar da az deyildir.[11]

Qeyd olunanlar məkan kateqoriyasının ontologiyası və qneseoloji xüsusiyyətləri barədə aşağıdakı ümumiləşdirmələri aparmağa imkan verir: a) dildə ifadəsini tapan məkan dərk olunandır və insanın hissi dərketmə imkanlarını nümayiş etdirməyə zəmin yaradır. İnsan məkanı müəyyən sərhədləri olan sahələr, həcmlər kimi ayıra bilir; b) dildə ifadəsini tapan məkan nisbidir. Maddi obyektlərin məkanda yerləşməsi oriyentir rolunu oynayan başqa obyektlər hesabına gerçəkləşir; c) məkanın dil qavramı və inikasında lokativ situasiya strukturu həlledici rol oynayır. Həmin struktur lokallaşan predmet, oriyentir, onlar arasındakı məkan münasibəti tipi, situasiyanın statikliyi və dinamikliyi, müşahidəçi, lokativ münasibətin ölçmə nöqtəsi kimi elementlərə malikdir.

"Kommunikasiya vahidlərində məkan əlaqələri" adıanan ikinci paraqrafda məkanın predmetin oriyentir çərçivəsində və ya ondan kənarda yerləşməsi və hərəkəti, predmetin oriyentirə yaxın və ya uzaqlığı, predmetin oriyentirin qarşısında, arxasında, sağında, solunda, ondan hündürdə və ya aşağıda yerləşməsi, oriyentirlər arasında, oriyentirdən müəyyən məsafədə olmaq kimi müxtəlif sıralar nəzərdən keçirilir.

Eyni semantik dominant ətrafında yaranan funksional-semantik sıraların struktur və ifadə olunan mənalar arasında oxşarlıq və fərqlər müqayisəli tədqiqat əsasında öyrənilir. Məsələn, Azərbaycan dilində məkan yaxınlığını ifadə edən sıraya aşağıdakılar aiddir: 1) zərflər: *yanında, yaxında, yaxın* və s.; 2) feillər: *yanaşmaq, yaxınlaşmaq;* 3)

---

[9] Яковлева, Е.С. О некоторых моделях пространства в языковой картине мира Е.С.Яковлева // Вопросы языкознания, – 1993. № 4, – с. 48.

[10] Зализняк, А.А. Преодоление пространства в русской языковой картине мира: глагол добираться // В кн.: Логический анализ языка. Языки пространств / отв. ред. Н.Д.Арутюнова, И.Б.Левонтина. – Москва: Языки русской культуры, – 2000. – с. 30.

[11] Маляр, Т.Н. Пространственно-дистанционные предлоги и наречия в русском и английском языках. / Т.Н.Маляр, О.Н.Селиверстова. – Munchen: Verlag Otto Sagner, – 1998. – с.35.

isim, sifət, söz birləşmələri: *yaxınlıq, yolun kənarı, yolkənarı, şəhər ətrafı, şəhər kənarı* və s.; 4) frazeologizmlər: *iki addımlıqda, əl uzatsan çatar, burnunun ucunda; böyür-başında, ovcun içində* və s.

Mətn zamanının geniş məkanında üç temporal ox, xətt qarşılıqlı təsirdə olur. T_1 xətti obyektiv irəli gedən obyektiv zamandır və mətnlə müqayisədə xarici zaman olub biristiqamətli, geriyə dönməyəndir. T_2 zaman xətti mətn, hadisə zaman xəttidir. Mətndə təsvir olunan hadisələrin baş verdiyi zamanı ifadə edir. T_3 perseptiv zaman xəttidir, danışanın (yazanın) zaman və məkan baxımından mətndə nəql edilən hadisələri müşahidə etmək üçün tutduğu mövqeni ifadə edir. Hadisə xətti üzrə danışan yerini dəyişir, gördüyünü, eşitdiyini, hiss etdiyini canlandırır, sağa, sola, irəliyə, geriyə gedir. *"Danışan hadisələrin baş verdiyi məkanda müxtəlif rakurslarda duraraq hadisə yerini, fonu, bu hadisədən əvvəl olanları və s. təsvir edir"*.[12]

X.Reyxenbax göstərir ki, zaman yalnız ona görə dərk olunur ki, hər bir zaman fasiləsi hansısa proseslə bağlıdır.[13] Zaman hadisə və proseslərin baş vermə anı və müddətini göstərməklə yanaşı, həmin hadisələrin məkan daxilində cərəyan etməsi barədə də məlumat almaq imkanı yaradır. Hərəkətin ifadəsi bilavasitə feillərlə ifadəsini tapdığından hərəkət feillərində məkan münasibətlərinin müxtəlif formaları aşkarlanır. Məsələn, "gəlmək" müəyyən məkandan müşahidəçinin, yaxud danışanın lokallaşdığı məkana doğru hərəkətdirsə, "getmək" bunun əksi olan hərəkətdir. Bu iki feil hərəkət istiqaməti baxımından antonim cüt təşkil edir və onlar hərəkətin başlanğıc və son nöqtələri barədə müəyyən informasiya daşıyırlar. Belə cəhət bütün feillərə xas deyildir. "Yanaşmaq" feili hərəkətin son nöqtəsini (müşahidəçinin yanı / qarşısı / sağı / solu) göstərirsə, başlanğıc nöqtəsi barədə heç bir informasiya daşımır, belə informasiya bəzən kontekstdən əldə olunur, bəzən isə onun verilməsinə ehtiyac

[12] Топоров, В.Н. Пространство и текст / В.Н.Топоров. – Москва: Изд. центр «Академия», – 2003. – с.121.

[13] Рейхенбах, Х. Философия пространства и времени / Х.Рейхенбах. – Москва: Прогресс, – 1985. – с.135.

hiss edilmir. Yəni bir subyektin və ya obyektin haradan gəlib digərinə yanaşması relevant olmur.

Birinci fəslin üçüncü paraqrafı ***"Dildə məkan – zaman və hərəkət vəhdəti"*** adlanır.

Məkan, zaman və hərəkət arasında əlaqələrin ifadəsi üçün müxtəlif vasitələrdən istifadə edilir. Məkan və məkan münasibətləri bir sıra dillərdə hal kateqoriyasının müəyyən halları, bəzi dillərdə isə, önlüklər vasitəsi ilə ifadəsini tapır. V.Maslovanın fikrinə görə, hal kateqoriyasının əsasında məkan münasibətləri durur. O, 216 nəzəri mümkün halı qeyd etmişdir.[14]

İngilis dilində zaman önlüklərindən fərqli olaraq, məkan önlükləri Azərbaycan dilindəki məkan bildirən hallara daha çox uyğun gəlir. Buna görə də ingilis dilində məkan bildirən önlüklərin qarşılığını Azərbaycan dilində məkan halları kimi vermək məqsədəuyğundur. Qoşma ilə ismin hal şəkilçisi haqqında danışarkən, demək olar ki, qoşma ilə hal şəkilçisi arasında vəzifəcə çox yaxınlıq vardır. Şübhəsiz, bu yaxınlığı onların eyniyyəti kimi başa düşmək olmaz, çünki hal şəkilçiləri sözdən ayrı bir müstəqil məzmuna malik olmadığı halda, qoşma əksər hallarda, müstəqil sözlərdən əmələ gəlir və şəkilçiyə xas olan xüsusiyyətlərdən məhrum olur.

Müasir ingilis dilində məkan önlüklərinə monosemantik və polisemantik önlüklər daxildir: Məkan önlükləri 1) hadisənin icra, yaxud əşyanın tutduğu yeri, 2) hərəkətin istiqamətini bildirir, Hadisənin icra, yaxud əşyanın tutduğu yeri bildirən önlüklər. Bu qrupa biz *in, at, on, about, around, behind, below, by, after, before* önlüklərini daxil edirik. Bu qrup iki yarımqrupdan ibarətdir. 1) Hadisənin icra olunduğu yeri bildirən önlüklər -*in, at, on*. 2) Əşyanın yerini bildirən önlüklər – *about, around, behind, below, by, after, before*. Hadisənin icra olunduğu yeri bildirən önlüklər. Bu önlüklər məkan bildirən isimlərlə əlaqəyə girdikdə hərəkətin baş verdiyi dəqiq yeri bildirir. *It had been quite casy to see at the meeting in January that he was in love with her.*

[14] Маслова, В.А. Когнитивная лингвистика: учебное пособие / В.А.Маслова. – Минск: ТетраСистемс, – 2008. – с.189

At önlüyü zaman bildirən isimlərlə əlaqəyə girdikdə, *in* önlüyü ilə sinonim olduğu kimi məkan bildirən isimlərlə də əlaqəyə girdikdə, sinonimlik təşkil edir. Lakin buna baxmayaraq onları fərqləndirən cəhətlər də vardır. *In* önlüyü, bir növ, bina bildirən isimlərin qarşısında işlənib, ictimai bina daxilində baş verən hadisəni bildirdiyi halda, *at* önlüyü, bizcə, bina deyil, daha çox tədris və müəssisə ilə əlaqədar isimlərin qarşısında işlənir. Lakin ifadələrdə isə *at* önlüyü mövcud olan əşyanın yerini göstərmək üçün, *in* önlüyü isə əksinə, təhsil və müəssisə bildirmək üçün işlədilir. Ev əşyaları ilə əlaqədar sözlərlə işlənən *in* və *on* önlükləri Azərbaycan dilinə ismin yerlik halı ilə tərcümə olunursa, *at* önlüyü "qarşısında" kimi ifadə olunur. *On* önlüyü də bəzən Azərbaycan dilinə *üstündə* kimi tərcümə olunur. Bütün misallarda göründüyü kimi, hadisənin icra olunduğu yeri bildirən *at, in, on* önlükləri Azərbaycan dilində, əsasən, ismin yerlik halı ilə ifadə olunur. *In* önlüyü əşyanın tutduğu yeri, mövcud olan məkanı göstərmək üçün işlədilir. Bu nöqteyi-nəzərdən *in* önlüyü *at* önlüyündən fərqlənir. *On* önlüyü məkan bildirən isimlərlə əlaqəyə girdikdə, əşyanın üstdə yerləşdiyini göstərir. Bu önlük yer, sahil, döşəmə və s. isimlərin üst səthində baş verən hadisəni bildirir.

İngilis dilindəki *out of* Azərbaycan dilinin çıxışlıq halının əvəzləyicisi deyildir. Lakin müəyyən situasiyalarda onların ekvivalentliyi müşahidə olunur. Qapalı obyekt bildirən isim "çıxmaq", "getmək", "gəlmək", "qayıtmaq", "düşmək" kimi hərəkət feilləri ilə idarə olunduqda və məkanı ifadə edən isim hərəkətin başlanğıc nöqtəsi, yeri olduqda çıxışlıq halın *out of* ilə ekvivalentliyi mümkünləşir. Məsələn, *evdən çıxmaq, avtobusdan düşmək, məktəbdən gəlmək, bağdan getmək, metrodan çıxmaq* və s.

Out of önlüyünün semantikasının özünəməxsusluğu çıxış obyektindən hərəkətin istiqaməti ilə də müəyyənləşir. Əgər çıxış obyekti konseptuallaşırsa, önlükdən istifadə etmək olmur. İngilis dilinin *out of*, eləcə də rus dilinin "iz" önlüyü cəhətləri (North, South, East, West) və istiqaməti (left, right, front, back) bildirən sözlərlə işlənmir. Halbuki, bu sözlər real gerçəklikdə müəyyən məkanı bildirir. Bəzən bunu qeyd edilən sözlərin müəyyən istiqamətdə sonsuz uzanan məkan ifadə etməsi ilə əlaqələndirirlər. Belə hallarda *from* önlüyündən istifadə olunur.

Bu fəsli belə ümumiləşdirmək olar ki, real gerçəklikdə hər şey zaman və məkan daxilindədir, zamandan asılı olaraq məkan, məkanın fraqmentlərində, hissələrində yerləşir. Yerləşmə sükunət və hərəkətlə bağlı olaraq nisbi səciyyə daşıyır. Sükunət halında yerləşmə statikdir, hərəkət zamanı isə dinamikdir. Dinamiklik zaman çərçivəsində lokallaşma mövqeyinin dəyişməsi baş verir. İnsan bir punktdan digər punkta hərəkət edərkən müxtəlif zaman anlarında iki punkt arasındakı müxtəlif nöqtələrdə olur. Hərəkət kəsilməz olduqda yerləşmə statiklik qazanmır, obyekt, yaxud subyekt bu nöqtələrdə dayanmır, onları ötüb keçir. Məkan da, zaman da, hərəkət də ümumi şəkildə götürüldükdə daimidir.

Birinci fəsildən əldə olunan müddəalar müəllifin qeyd olunan nəşrlərində öz əksini tapıb.[15]

Tədqiqat işinin II fəsli **"Müxtəlifsistemli dillərdə məkanın leksik-semantik ifadə vasitələri"** adlanır.

"İngilis və Azərbaycan dillərində məkanın funksional-semantik sahəsi" adlanan birinci paraqrafda qeyd edilir ki, dilçiliyin müasir inkişaf mərhələsində dil hadisələrinin funksional aspektlərinə, dildə sistemli əlaqələri öyrənməyə diqqət artmışdır. Funksional qrammatikada yaranmış funksional-semantik sahə nəzəriyyəsi hazırda dilin müxtəlif kateqoriyalarının tədqiqində tətbiqini tapır. A.B.Bondarko funksional-semantik sahəni belə təyin edir: *"Funksional-semantik sahə dilin qrammatik (morfoloji və sintaktik) vasitələri və onlarla qarşılıqlı təsirdə olan eyni semantik zonaya*

---

[15] Muğalova, L.T. Müxtəlifsistemli dillərdə funksional-semantik məkan sahəsi məsələsi // – Gənc alimlərin II Beynəlxalq elmi konfransının materialları, – Gəncə: Gəncə Dövlət Universiteti, – 26-27 oktyabr, – 2017, – s.320-321; Mətnin məkan münasibətləri sistemi // Gənc alimlərin III Beynəlxalq elmi konfransının materialları, – Gəncə: Gəncə Dövlət Universiteti,– 17-18 oktyabr, – 2018, – s.39-41; Dildə məkan-zaman və hərəkət vəhdəti // – Bakı: Terminologiya məsələləri, – 2021. №2, – s.123-127; Məkan və zaman kateqoriyalarının linqvistik aspektdən təhlili // – Xarici dillərin tədrisinin aktual problemləri . Respublika elmi-praktik konfransının tezislər toplusu, – Bakı: Azərbaycan Dillər Universiteti, – 23 dekabr, – 2022, – s.96; Müxtəlifsistemli dillərin leksikasında məkan və zaman vəhdəti // Dialogue of Sciences and Cultures in the Modern World. The XXXIII İnternational Scientific Symposium, – Bishkek/ Kyrgyzstan, – December 24, – 2022, – c.64-66.

malik leksik, leksik-qrammatik və sözdüzəltmə elementləri ilə formalaşan ikitərəfli formal-məzmun birliyidir”. [16] İstənilən funksional-semantik sahənin əsasında müəyyən semantik kateqoriya durur və bu kateqoriyanı təmsil edən semantik invariant müxtəlif növlü dil vasitələrini birləşdirir, onların qarşılıqlı təsirinin özəyini təşkil edir. Funksional-semantik sahə nəzəriyyəsi haqqında müxtəlif tədqiqat işlərində bəhs olunmuşdur.[17] Qeyd olunan tədqiqat işlərində sahə nəzəriyyəsinin müxtəlif məsələləri, ayrı-ayrı sahələr fərqli dillərin materialları əsasında araşdırılmışdır.

Funksional-semantik lokativlik sahəsi semantik qeyri-bircins şəkildədir. Bu, ondan irəli gəlir ki, istənilən prosesə məkan prizmasından yanaşma onun ya statik, ya da dinamik olduğunu aşkara çıxaracaqdır. Bu isə, funksional-semantik lokativlik sahəsinin iki mikrosahə – yerləşmə və yerdəyişmə mikrosahələrinə bölünməsi ilə nəticələnir. Məkan münasibətlərində lokallaşdırıcılar xüsusi rol oynayır. Statik və dinamik məkan münasibətlərində obyektin seçilmiş lokallaşdırıcı ilə müqayisədə sükunətdə, yaxud hərəkətdə olması nəzərə alınır.

Funksional-semantik lokativlik sahəsinin mürəkkəb iyerarxik strukturu “mərkəz-periferiya” prinsipi üzrə qurulur. Məkan konstruksiyaları müxtəlif semantik feil qruplarına aid feillərlə işlənərək cümlədə yer zərfliyi funksiyasında çıxış edir. Onlar yerləşmə mikrosahəsinin nüvəsini təşkil edib lokativliyi eksplisit, yaxud aşkar formada ifadə edir. Zərflik hərəkət və ya əlamətin meydana çıxmasını müxtəlif cəhətdən izah edir, cümlənin ikinci dərəcəli üzvü olur. Yer zərfliyi hal və hərəkətin yerini göstərir, hara, haraya, harada, haradan suallarından birinə cavab verir. Yer zərfliyi yer zərfləri, yer mənalı isimlər, ismi birləşmələr, qoşmalı söz və söz birləşmələri, sual əvəzlikləri ilə ifadə olunur. Yer zərfliyi xəbərə və ya cümlənin feillə ifadə olunmuş başqa üzvünə tabe olur. Yer zərfliyi digər zərflik növləri ilə müqayisədə daha müstəqildir. Feil özündən

---

[16] Бондарко, А.В. Функциональная грамматика / А.В.Бондарко. – Ленинград: Наука, – 1984. – с.40

[17] Abdullayev, S. Müasir alman və Azərbaycan dillərində inkarlıq kateqoriyası / S.Abdullayev. – Bakı: Maarif, – 1998. – s.27.

sonra yerin mütləq dəqiqləşdirilməsini tələb etdikdə yer zərfliyi onunla daha sıx bağlanır, ingilis dilində feillə müqayisədə postpozisiyada, Azərbaycan dilində isə prepozisiyada işlənir.

İstər Azərbaycan, istərsə də ingilis dilinin funksional-semantik lokativlik sahəsi mürəkkəb çoxölçülü olub, konstituentlərinin funksiyalarına görə təyin edilir. Konstituentlər mikrosahələr üzrə qeyri-müntəzəm paylanır. İngilis dilinin lokativlik sahəsi polisentrikdir və onun nüvəsi sintaktik səviyyə vasitələri ilə təşkil olunur. Nüvə mərkəzlərindən biri məkan mənalı substantiv birləşmələri və müxtəlif semantik qruplara aid feillərlə təşkil olunur.

İkinci fəslin ikinci paraqrafı ***"Müxtəlif sistemli dillərdə məkan mənalı leksik vahidlər"*** adlanır.

İngilis və Azərbaycan dillərində məkan mənası ifadə edən leksik vahidlər, əsasən, isim və zərf nitq hissələrinə aiddir. Zərf morfoloji kateqoriyasında yer zərfi mənaca dörd növdən biridir, hərəkətin və hadisənin icra yerini, istiqamətini, son nöqtəsini, çıxış nöqtəsini bildirən sözlərdir. Onlardan bir neçəsini nəzərdən keçirək.

Yuxarı, yuxarıda, üstdə, yüksəkdə kimi yer zərfləri bu məqamda işlənir. Yuxarıda – *at the tap, above*. *Above* sözü "üzərində" mənasında da işlənir. Məsələn, *above the clouds* – buludların üzərində.

"Solcer, bilirsən nə var, – biz fermanın olduğu təpənin üstünə qalxanda Cek ona dedi, – sən çıx get şəhərə"[18]. Bu cümlədə lokallaşan obyektin (ferma) yuxarıda olmasını göstərmək üçün "təpənin üstü" birləşməsindən istifadə olunmuşdur. Bundan əlavə, yerdəyişmə hərəkətinin yuxarıda istiqamətlənməsi "qalxanda" feili bağlamanın semantikasında da aşkarlanır.

"Onu bizim üçün yuxarı göndər"; "Yuxarı qalxdıq"[19]. Bu cümlədə predmetin məkan daxilində yuxarıya hərəkəti və ya yerdəyişməsi ifadəsini tapmışdır. İstər birinci, istərsə də ikinci cümlədə lokallaşma baş vermişdir. Birinci cümlədə obyektin yuxarıda hərəkəti və yuxarıda lokallaşması gələcəkdə baş verəcəkdir.

---

[18] Heminquey, E. Qadınsız kişilər / E.Heminquey – Bakı: Tərcümə Mərkəzi, – 2015. – s.117.
[19] Yenə orada. – s.127.

İkinci cümlədə subyektlərin yuxarıya hərəkəti tamamlanmışdır. Ümumiyyətlə, yuxarıda yerləşmə oriyentirin aşağı məkanda olmasını tələb edir.

"The American and the girl with him sat at a table in the shade, outside the building" – "Amerikalı kişi ilə onun yol yoldaşı olan cavan qız binanın kölgəsindəki balaca stolun arxasında oturmuşdular"[20]. Bu nümunədə üçüncü növ təyini söz birəşməsi yerlik hal şəkilçisi qəbul etmişdir və bu birləşmədə yerləşmə, lokallaşma yerinin stola yaxınlığı mənasını verir. Oriyentir obyekt, yaxud lokallaşdırıcı obyekt stoldur. Söz birləşməsi ayrı-ayrı komponentlərinə görə deyil, bir tam şəkildə lokativ münasibəti ifadə edir.

İngilis dilində məkan mənalı düzəltmə sözlərin təhlili göstərir ki, məkan semantik kateqoriyasının bu sözləri "məkan", "ərazi", "tikili və həcmi vahidləri" bildirən semantik qruplarda birləşdirmək mümkündür. Burada feil+formant, isim+formant, sifət+formant modelləri üzrə qruplaşma müşahidə edilir. Motivləndirici sözlə formant arasındakı münasibət, həmçinin konkret formant məkan münasibətinin ifadə formasında əhəmiyyətli rol oynayır. Məsələn, hadisənin yerləşmə yerini ifadə edən sözlərin feil+tion/ion, feil+ery, feil+ment, feil+ing modelləri aşkara çıxır: **Feil+tion/ion modeli.** İngilis dilindəki "to found" – əsasını qoymaq feilinə -tion formantının artırılması ilə *foundation* törəmə sözü əmələ gəlir və bu söz "idarə, fond" məkan mənalı isim olur. Bu halda model feil=tion şəklində özünü göstərir. Eyni model üzrə accommodation (accommodate+tion, administration (administe+tion) və s. məkan mənalı düzəltmə sözlər formalaşmışdır. **Feil+ery modeli**. Motivləndirici feil əsasına *-ery* suffiksi artırıldıqda müəyyən fəaliyyətin həyata keçirilməsi üçün yer mənasını bildirən derivatlar düzəlir. Məsələn *bake* "bişirmək, yandırmaq" feilindən *bakery* "çörək bişirilən yer", "brew bişirmək (pivə)", "dəmləmək (çay)" feilində "pivə bişirilən yer, pivə zavodu" mənalı *brewery*, to grind "cilalamaq" feilindən *grindery* "cilalama, itiləmə sexi", to print "çap

[20] Heminquey, E. Qadınsız kişilər / E.Heminquey – Bakı: Tərcümə Mərkəzi, – 2015. – s.90.

etmək" feilindən *printery* "mətbəə" məkan mənalı düzəltmə isimlər düzəlir. **Feil+ment modeli**. Bu sözdüzəltmə modelindəki "-ment" suffiksi fəaliyyət nəticəsində yaranan yer mənalı derivatların düzəldilməsində iştirak edir. Məsələn, *establish* "təyin etmək, təsis etmək" feilindən establishment-idarə, müəssisə, "entrench" feilindən (səngərlə əhatə etmək) *entrenchment* "səngər, xəndək" məkan mənalı sözlər əmələ gəlir. **Feil+ing modeli**. Bu model üzrə düzələn derivatlar motivləşdirici sözün ifadə etdiyi fəaliyyətlə səciyyələnən məkan, yaxud yer, tikili bildirir. Məsələn, "to builg" – "tikili", "yuva qurmaq" feilindən *building* "bina, tikili", to hold feilindən (tutmaq, saxlamaq) *holding* – "torpaq sahəsi, torpaq mülkiyyəti", to lodge feilində *lodging* (yaşayış yeri), to park feilindən *parking* (dayanacaq) kimi məkan mənalı düzəltmə sözlər əmələ gəlir və s. Dissertasiyada bu modellər ətraflı şərh edilmişdir.

"Hal və hərəkətin məkan parametrlərinin feillərlə ifadəsi" adlanan üçüncü paraqrafda qeyd edilir ki, hal və hərəkətlə bağlı olan bir çox proseslər məkana istiqamətlənməni, məkanda yerləşməni, məkanda yerdəyişməni ifadə edir. Bu cür proseslərin verballaşmasında feillər xüsusi rol oynayır.

İngilis dilində yerdəyişmə mənasını ifadə edən *to drive, to drag, to bring, to wear, to draw, to carry, to bear, to lead* feilləri Azərbaycan dilində müvafiq qarşılıqlara malikdir. Bu feillər obyektin yerini dəyişmə semantik qrupunu təşkil edir və funksional-semantik məkan sahəsinin yerdəyişmə mikrosahəsinə daxil olur. Bunu mikrosahəyə daxil olan hər bir feilin semantikası da təsdiq edir.

Məkan daxilində yerdəyişmə hərəkətin cızdığı trayektoriyaya görə müxtəlif formalarda baş verir. Belə formalardan biri də xətti hərəkətdir. Bu hərəkət növü, daha doğrusu, məkanda xətti yerdəyişmə, hər şeydən əvvəl, yolda olan insanla bağlıdır. Göründüyü kimi, istiqamətlənmiş yerdəyişmə hərəkəti ya təyin olunmuş müəyyən nöqtədən, yaxud da qeyri-müyyən yerdən başlanır və kənarda olan obyekt istiqamətlənir. Azərbaycan dilində yerdəyişmə prosesi *getmək, qaçmaq, uçmaq, üzmək, şığımaq, irəliləmək* və başqa feillərlə ifadə olunur.

Hərəkət trayektoriyasını ifadə edən semantikaya malik feilləri hərəkət üsulu və tempinə, hərəkət istiqamətini konkretləşdirən və

obyektin hərəkətini adlandırmağa əsasən qruplaşdırmaq mümkündür.[21] İngilis və Azərbaycan dillərində hərəkət üsulunu ifadə edən feillərə *yerimək, qaçmaq, uçmaq, sürünmək, dırmaşmaq, sürüşmək, run, walk, pass, come, go, fly, move, clumb, stumble, room, roll, slip, steal, swarm, paddle, bound, shift* və s. aid edilir.

Hərəkət tempini ifadə edən feillərə *sürüklənmək, yumbalanmaq, şığımaq, crawe, plod, dart, limp, rush, drag, scuttle* və s. aiddir. Bu leksik-semantik qrup mətnlərdə işləkdir. Hərəkət istiqamətini konkretləşdirən feillərə *qalxmaq, enmək, ascend, advance, descend, rise* və s. aid edilə bilər. *Əsmək, səpələnmək* feilləri maddənin hərəkətini bildirir. Nümunələrə diqqət yetirək:

"I'm going back to the kitchen with the nigger and bright boy," he said. "Go back to the kitchen, nigger. You go with him, bright boy." "Mən bu ikisiylə mətbəxə gedirəm, – El öz oturduğu kətildən yerə düşdü. – Ey, qarasifət, sən keç öz mətbəxinə"[22]. Nümunədə birinci və üçüncü cümlədə finişə, oriyentirə doğru hərəkət ifadə olunur. Azərbaycan dilinə tərcümə olunmuş birinci cümlədə oriyentir, daha doğrusu, hərəkətin son nöqtəsini göstərən "mətbəxə" söz-formasıdır. Mətbəx ismi yönlük hal şəkilçisi qəbul etmiş və hərəkətin istiqamətini bildirir. Üçüncü cümlədə işlənmiş "keçmək" feilinin "keç" kökü feilin əmr şəklindədir və bu predikat qarasifətin də yerdəyişməsinin mətbəx istiqamətində marağını göstərir.

"Qapı bir neçə şaqqıltıdan sonra aşıldı və Manuel çamadanını götürüb içəri keçdi"[23]. Burada "içəri-çöl qarşılaşdırılması" iki məkan arasında qapının sərhəd funksiyası yerinə yetirdiyini göstərir. Manuelin çamadanı götürməsi onun qapı açılana qədərki vəziyyətində hərəkətin yoxluğuna işarə vardır. Manea ortadan götürüləndən sonra irəliyə, daha doğrusu, içəriyə istiqamətlənmiş hərəkət başlanır. Məkan "içəri" yer zərfi isə eksplikasiya olunur. Obyektin əvvəl yerləşdiyi məkan haqqında isə konteksdə məlumat

---

[21] Дмитриев, Н.К. Грамматика башкирского языка. / Н.К.Дмитриев. – Москва: Наука, – 2008. – с.49

[22] Heminquey, E. Qadınsız kişilər / E.Heminquey – Bakı: Tərcümə Mərkəzi, – 2015. – s.99.

[23] Heminquey, E. Qadınsız kişilər / E.Heminquey – Bakı: Tərcümə Mərkəzi, – 2015. – s.47.

vardır. Hekayə *"Manuel Qarsia pilləkələ don Migel Retananın kontoruna qalxdı. Əlindəki çamadanı döşəməyə qoyub, qapını tıqqıldatdı. Heç bir cavab eşidilmədi. Amma dəhlizdə dayanan Manuel hiss edirdi ki, otaqda kimsə var. Bunu birbaşa qapı arxasından duyurdu. Odur ki, içəri qulaq kəsilib qaçırdı"*[24].

Verilmiş mətnin tərcüməsində Azərbaycan dilinin *qalxmaq, qoymaq, taqqıldatmaq, eşitmək, dayanmaq, durmaq, hiss etmək, duymaq, qulaq kəsilmək, çağırmaq* feillərindən istifadə edilmişdir. Onlardan ikisi cümlədə feili bağlama, biri feili sifət formasındadır.

Buradan belə nəticəyə gəlmək olur ki, hərəkət feilləri müəyyən məkan parametrlərinə malikdir və bu parametrlər obyektin lokallaşmasının, makana daxilolmasının və onu tərk etməsinin ifadəsinə imkan yaradır.

İkinci fəsildən əldə olunan müddəalar müəllifin qeyd olunan nəşrlərində öz əksini tapıb.[25]

Dissertasiyanın III fəsli **"İngilis və Azərbaycan dillərində məkanın sintaktik ifadə vasitələri"** adlanır.

---

[24] Heminquey, E. Qadınsız kişilər / E.Heminquey – Bakı: Tərcümə Mərkəzi, – 2015. – s.48.

[25] Muğalova, L.T. İngilis və Azərbaycan dillərində məkan mənalı leksik vahidlər // – Bakı: Azərbaycan Dövlət Pedaqoji Universiteti, Linqvistika problemləri. Beynəlxalq elmi jurnal, – 2021. 2 c. №2, – 190-197; Spatial Functional-semantic field in the English and the Azerbaijani Languages // – Drohobych, Ukraine, Humanities Science Current İssues, Interuniversity collection of Drohobych İvan Franco State Pedagogical University Young Scientists Research Papers, – 2021. Issue 39, Vol.2, – p.157-163; İngilis və Azərbaycan dillərində hal və hərəkətin məkan parametrlərinin feillərlə ifadəsi // – Bakı: BSU, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi, – 2021. №3, – s.60-66; Fəlsəfədə və dilçilikdə məkan anlayışı // – Bakı: Bakı Qızlar Universiteti. Elmi Əsərlər, – 2023. №4(56), – s.33-38.; İngilis və Azərbaycan dillərində vertikal istiqamətli hərəkət modellərinin semantik təhlili // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu. Filologiya məsələləri, – 2026. №5, – s. 179-187.; İngilis və Azərbaycan dillərində istiqamət və məkan bildirən feillərin semantik xüsusiyyətləri // – Bakı: BSU, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi, – 2026. №3, – s.102-108.

Üçüncü fəslin birinci paraqrafı *"**İngilis dilində məkanın sözönlü sintaktik konstruksiyalarla ifadəsi və onların Azərbaycan dilində qarşılıqları"*** adlanır.

Dildə məkan münasibətlərinin ifadə vasitələri arasında sözönülər semantik baxımdan xüsusi əhəmiyyət və maraq kəsb edir. Formal-linqvistik yanaşma nöqteyi-nəzərindən sözönülər dilin qrammatik vasitələri sırasındadır. Koqnitiv yanaşma yolu ilə sözönülərin mənasının hərtərəfli öyrənilməsi məkan konseptlərinin məzmununu təyin etməyə, eləcə də, sözözünlərlə təsvir olunan denotativ şəraitlərin əsas xüsusiyyətlərini aşkara çıxarmağa imkan verəcəkdir. Sözönülərin koqnitiv metodlarla tədqiqinə dair bir çox işlər mövcuddur.[26] Son illərdə aparılmış işlər göstərir ki, sözönülər həm də leksik mənaya malik olub, mürəkkəb semantik quruluş strukturu ilə seçilir. Bu isə sözönülərin leksik mənasının ənənəvi təyin üsulunu genişləndirir, mənanın məkan, zaman, səbəb və s. münasibətlərini ifadə etdiyini təsdiqləyir.[27]

İngilis dilində sözönülər yerləşmə xüsusiyyətlərinə görə iki qrupa bölünür: 1) xarici yerləşmə sözönüləri; 2) daxili və təmaslı yerləşmə sözönüləri.

Dissertasiyada qeyd olunan qrupları yarımqruplar əsasında tədqiq etməyi, bu zaman hər yarımqrupa aid sözönülərinin ayrıca təhlilini verməyi daha məqsədəuyğun saymışıq. Onlardan bir neçəsinə nəzər salaq.

Xarici yerləşmə sözönülərinin semantikası. Bu qrupa aşağıdakı sözönüləri daxildir: *about, against, at, by, above, over, ahead, of, before, in from of, opposite, behind, under, below, benealth, around, round, beside, next to, along, alongside, beyond, near* və s.

Lokallaşdırıcının bilavasitə yaxınlığında yerləşməni reallaşdıran sözönülər. Qeyd olunan şəkildə yerləşmənin ifadə olunması üçün *at, about, against, by, near, outside* sözönülərindən istifadə edilir.

---

[26] Болдырев, Н.Н. Когнитивная семантика (курс лекций по английской филологии) / Н.Н.Болдырев. – Тамбов: Изд-во Тамб.Гос.Ун-та им. Г.Р.Державина, – 2001. – с. 25.

[27] Селиверстова, О.Н. Микросистема как единица контрастивного анализа / О.Н. Селиверстова, Т.Н. Маляр // Язык: теория, история, типология. – Москва: Эдиториал УРСС, – 2000. – с. 229.

At – ingilis dilində qədim dövrdən işlənən sözönüdür. Əvvəllər hərəkətin baş verdiyi və ya yerinə yetirildiyi miimal məkanın göstəricisi olmuşdur. Müasir ingilis dilində obyetin yanında yerləşməni, eləcə də, obyektin yaxınlığını ifadə edir. Məsələn:

"Next day there was no Muhammad Din ***at*** *the head of the carriage-drive*, and no "Talaam, Tahib" to welcome my return[28]. – Ertəsi gün Məhəmməd-Din məni ***darvazanın ağzında*** qarşıladı və mən onun həmişəki "Talam, tahib" deyə salamlaşmasını eşitmədim.

Near. Yer bildirilərkən işlədilən "yaxında, yaxınlıqda" mənalarını verən sözönüdür. Danışan məkan münasibətlərinin ifadəsi zamanı müşahidə etdiyi obyektlər arasındakı məsafəni bəzən qiymətləndirməli olur. Qiymətləndirmə dəqiq və tərtibi ola bilər. Predmetin oriyentirə yaxınlığına ingilis dilində sözönü və yer zərflərini göstərmək mümkündür və belə vasitələrdən biri *near* sözönüdür. Bu dil vasitəsi yaxınlığı ümumiləşdirilmiş şəkildə ifadə etdirir.

And now a light truck approached, and as it came ***near****, the driver saw the turtle and swerved to hit it. Dogs came sniffing* ***near*** *the owner cars and wetted on all four tires one after another*[29].

Yerləşdirilən predmetlə oriyentir arasındakı məsafəni təyin etmək həm müşahidəçinin mövqeyini nəzərə almaqla, həm də ondan asılı olaraq reallaşdırılır. Azərbaycan və ingilis dillərində məsafənin ifadə olunması üçün müxtəlif dil vasitələrindən istifadə edilir.

"Müxtəlifsistemli dillərdə məkanın sintaktik ifadə vasitələri" adlanan ikinci paraqrafda ingilis dilində məkanı ifadə edən önlük və önlüklü konstruksiyaların aşağıdakı semantikaları əhatə etməsi xüsusilə vurğulanır: 1) məkan oriyentirinin səthində lokallaşma; 2) məkan oriyentirinin daxilində lokallaşma; 3) məkan oriyentirinin bilavasitə yaxınlığında lokallaşma; 4) məkan oriyentirinin hüdudlarından kənarda lokallaşma.[30] "*Bu cür lokallaşmalar real gerçəklikdə obyekt-məkan, subyekt-məkan münasibətlərinə uyğun*

---

[28] Kipling, R. The Story of Muhammad Din / R.Kipling. – Bombay: ЛитРес, – 1931. – p.15.

[29] Steinbeck, J. The Grapes of Wrath / J.Steinbeck. – USA: Viking Press, – 1939. – p.64.

[30] Steinbeck, J. The Grapes of Wrath / J.Steinbeck. – USA: Viking Press, – 1939. – s.120-121.

gəldiyinə görə onların başqa dillərdə, o cümlədən Azərbaycan dilində də ifadə vasitələri olmalıdır. Tədqiqat göstərir ki, Azərbaycan dilində qeyd olunan məqamlarda məkani hallar, qoşmalı birləşmələr, yer zərfləri istifadə olunur. Bu vasitələr məkan münasibətlərini bildirən strukturlar kimi çıxış edir".[31]

Azərbaycan dilinin hal və qoşmalı məkan formalarına ingilis dilinin önlüklü konstruksiyaları uyğun gəlir. Bu konstruksiyalar obyektin yerləşmə yerini göstərir. Həmin prosesdə bütün fəaliyyət ərzində məkan xarakteristikaları dəyişməz qalır. Lokallaşma zamanı təsvir olunan obyektlə oriyentirin qarşılıqlı yerləşməsi eyni cür qalır.

Ə.Z.Abdullayev *Qatar Bakıdan axşam çıxdı. Moskva Bakıdan böyükdür. Söhbət Bakıdan düşmüşdü* cümlələrindən birincisində *Bakıdan* sözünün yer zərfliyi, ikinci və üçüncü cümlələrdə isə vasitəli tamamlıq olduğunu düzgün qeyd etmişdir. Lakin məntiqi-semantik planda məsələyə yanaşsaq, Bakı məkan məzmununu hər üç halda saxlayır. Təbii ki, qrammatik məkan və konseptual məkan fərqli anlayışlardır. Cümləni semantik təhlil etdikdə cümlə üzvlərini ayırıb konkretləşdiririk. Məkan münasibətlərini araşdırdıqda isə məsələyə bir qədər fərqli yöndən baxılır. Əgər yer zərfliyinin həmişə "yer" ifadə etməsi onun məkanla birbaşa əlaqəsinə əsas verirsə, mübtəda, tamamlıq üçün belə birbaşa bağlılıq yoxdur. Belə cümlə üzvü funksiyasını yerinə yetirən sözün məkan ifadə etməsi onun mənasından irəli gəlir. Mübtəda "kim?", "nə?, "hara?" suallarına cavab verir və yalnız "hara?" sualına cavab verən mübtəda funksiyasında işlənən sözün məkan bildirməsini iddia etmək düzgün deyildir. Onu da qeyd edək ki, Ə.Abdullayev özü də bu məsələyə qismən diqqəti cəlb etmiş və yazmışdır: *"Belə cümlə üzvlərinin müəyyənləşməsində məkani-qrammatik hallarda işənən isimlərin məkan məzmunu və ya əşya məzmunu daşımasının əhəmiyyəti böyükdür".*[32]

İngilis dilində məkan münasibətlərinin ifadəsi zamanı dildən xaric məkan təsəvvürləri də spesifik rol oynayır.Linqvokultruroloji mahiyyət

---

[31] Muğalova, L.T. Müxtəlifsistemli dillərdə məkanın sintaktik ifadə vasitələri // – Bakı: Bakı Qızlar Universitetinin Elmi Əsərləri, – 2021. 12 c. №3(47), – s.75.

[32] Abdullayev, Ə.Z. Azərbaycan dili məsələləri. / Ə.Z.Abdullayev. – Bakı: Bakı Universiteti, – 1992. – s.149-150

daşıyan bu məsələ elə semantik hadisə kimi özünü göstərir ki, obyektin müəyyən sitausiyada necə təsəvvür olunması əhəmiyyət daşıyır. Azərbaycan dilində *quş ağacda oturur, yaxud quş budaqda oturur*. Əslində, bu zaman quşun budağın üstündə və ya ağacın hansısa budağının üstündə oturması nəzərdə tutulur. İngilis dilində *There is a bird in a tree* (hərfi tərcümədə: Ağacda quş var) konstruksiyasından istifadə edilir. Əslində, Azərbaycan dilində "ağacda quş var" demək də mümkündür. İngilislər minik maşınına müəyyən tutumu olan nəqliyyat vasitəsi kimi baxırlar. *A man is in a car*. Azərbaycan dilində də "maşında adam var", "adam maşındadır" deyimləri mümkündür. İngilislərdə avtobusa səth kimi yanaşırlar. Ona görə *A man is on a bus.* Azərbaycan dilində bu məqamda yalnız avtobusun içində olmaq nəzərdə tutulur və yerlik hal şəkilçisindən istifadə edilir.

Tədqiqatlar göstərir ki, məkan münasibətləriin sintaktik ifadə formalarında semantik xüsusiyyətlər də əhəmiyyətli rol oynayır. Onu da qeyd edək ki, məkan münasibətlərinin ifadəsi mürəkkəb sintaktik bütövün ümumi temasından, yaxud mikrotemadan da irəli gələ bilər. Bu cür halların mövcudluğu məsələnin mətn dilçiliyi səviyyəsində tədqiqini tələb edir.

Üçüncü fəsildən əldə olunan müddəalar müəllifin qeyd olunan nəşrlərində öz əksini tapıb.[33]

---

[33] Muğalova, L.T. İngilis dilində məkanın sözönülü sintaktik konstruksiyalarla ifadəsi və onların Azərbaycan dilində qarşılıqları // – Bakı: Azərbaycan Dillər Universiteti, Dil və ədəbiyyat, – 2020. X c. №3, – s.72-79; Müxtəlifsistemli dillərdə məkanın sintaktik ifadə vasitələri // – Bakı: Bakı Qızlar Universitetinin Elmi Əsərləri, – 2021. 12 c. №3(47), – s.75-80; Средства реализации концептов пространства и движения в Азербайджанском и английском языках // Культурология, филология, искусствоведение: Актуальные проблемы современной науки. Сборник статей по материалам XLVII Международной научно-практической конференции, –Новосибирск, – июнь, – 2021, – с.73-78; Dildə məkan konseptinin sözönülərlə ifadəsi // "Türkdilli xalqların elmi-mədəni əlaqələri müasir mərhələdə: tarixi ənənə və perspektivlər" Respublika elmi konfransı, ADPU-nun Şamaxı filialı, – Şamaxı: – 29-30 oktyabr, – 2021, – s.281-285; İngilis və Azərbaycan dillərində zaman və məkan konseptinin frazeoloji vahidlərdə əksi // – Bakı: Azərbaycan Dillər Universiteti, Dil və ədəbiyyat, – 2022. XII c. №2, – s.74-79.

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqat zamanı əldə edilmiş elmi qənaətlər ümumiləşdirilmişdir:

1. Məkan və zaman kateqoriyaları bir-biri ilə daimi münasibətdə qarşılıqlı əlaqədədir. Məkan zaman hüdudlarında forma, struktur və ölçü ətraf obyektlərlə təmasda sabitliyə malikdir. Zaman keçdikcə müəyyən məkanın parametrlərində dəyişmələr mümkündür. Bu cəhət daha çox təsvir olunan, haqqında söhbət gedən, insanın yerləşdiyi məkana xasdır. Real məkanla yanaşı, bioloji, məntiqi, xəyali, psixoloji və bədii məkan anlayışları da mövcuddur.

2. Mətnin məkan strukturu üçün ilkin nöqtə, subyektin yerləşmə yeri vacibdir. Mətndə məkanın ikiyə bölünməsi səciyyəvidir. Əsas məkan hadisələrin baş verdiyi, personajların yerləşdiyi məkandır. İkinci məkan müəllifin, nəql edənin yerləşdiyi yer, punkt, nöqtədir. İlkin nöqtə, punkt "burda" və ya "orada" müəllifin mətn hadisələrinə münasibətdə yerləşdiyi yerdir. Bu yer dəyişən, sabit və şərti ola bilər.

3. Mətn məkanı iki fərqli növə malikdir. Bunlardan birincisi statik, ikincisi dinamik və vektorlu məkandır. Vektorlu məkan istiqamətlənmiş, yönlənmiş məkan olub, onun hansı istiqamətdə yerdəyişməsini aşkara çıxarır. Hər iki məkanın mətndə reallaşması müvafiq dil vasitələrinin köməyi ilə olur. İngilis dilində məkan münasibətləri önlüklər, Azərbaycan dilində hal şəkilçilərinin köməyi ilə öz ifadəsini tapır.

4. Lokativ mənanın iki əsas forması onu iki seqmentə ayırır. Birinci seqment yer, ikinci seqment isə istiqamətdir. İngilis və Azərbaycan dilinin funksional-semantik lokativlik sahəsinin üfüqi strukturunda yerləşmə və yerdəyişmə mikrosahələri ayrılır.

5. Azərbaycan dilinin funksional-semantik lokativlik sahəsinin qrammatik səviyyə vahidləri ismin məkani hallarının şəkilçilərindən təşkil olunur. Sahə qrammatik nüvəyə malikdir və qrammatik vasitələr kimi, məkan mənası yaratmaqda yüksək məhsuldarlığı ilə seçilir.

6. İngilis dilində ənənəvi olaraq, məkan münasibətləri iki növ (directional relations, distance relations) əsasında öyrənilir. Birinci növ istiqamət münasibətlərini əhatə edir, xarici və daxili istiqamət münasibətlərinə bölünür. Xarici istiqamət münasibətləri (external

directional relations) predmetin oriyentirdən kənarda yerləşməsinə aiddirsə, daxili istiqamət münasibətləri oriyentir daxilindəki münasibətləri özündə birləşdirir. İngilis dilində məkan ifadə edən zərflik konstruksiyalarında predikatın ətrafında asılı komponentlər yerləşir. Söz birləşmələrinin komponentləri arasında yanaşma əlaqəsi səciyyəvidir. Əsas model feil+önlük+isim (ümumi halda) şəklindədir. Analitik tipli ingilis dili üçün dəqiq təyin olunmuş söz sırası vardır. Ona görə də ingilis dilində lokativ şəraitin strukturu konkretdir, subyekt, predikat və lokallaşdırıcıdan təşkil olunur.

7. İngilis və Azərbaycan dili vasitələri ilə ifadə edilməkdən asılı olmayaraq lokativlik situasiyası eyniliyini saxlayır. Çünki məkan münasibətləri dil vasitəsi ilə təyin edilmir, dil vasitəsi ilə təsvir, yaxud ifadə olunur. İngilis dili üçün subyekt-predikat-lokativ, Azərbaycan dili üçün subyekt-lokativ-predikat sıralanması səciyyəvidir. İngilis dilində cümlə daxilində komponentlər arasında əlaqə dil vasitələrinin bir-birinə yanaşması yolu ilə reallaşır və feil-önlük-ümumi halda olan isim şəklində özünü göstərir. Azərbaycan dilində məkani hallardan birində olan isim – feili ardıcıllığı əsasdır.

8. Analitik tipli olan ingilis dilini cümlənin qrammatik quruluşunda məntiqi düşüncə tərzi, ciddi təyin olumuş, yalnız üslubi məqsədlə pozula biləcək söz sırası səciyyələndirir. Azərbaycan dilində bu məntiq elementlərin yerləşmə qaydasında deyil, onlar arasındakı münasibətlərdə, qarşılıqlı əlaqədə və daxili məzmunda özünü göstərir. Ona görə də ingilis dilində lokativ situasiya strukturu (subeykt, predikat və lokalizator) daha konkret və formalıdır, onda elementlərin ardıcıllığı dəyişmir. Azərbaycan dilində isə belə dyişmələr mümkündür. İngilis dilində məntiqi komponentlər sintaktik formalara daha çox uyğun gəlir. Azərbaycan dilində məzmun planı struktur keyfiyyətləri üstələyir və sintaktik quruluşa sərbəstlik verir. Azərbaycan dilində sintaksislə morfologiyanın qarşılıqlı əlaqələri daha güclüdür.

9. Lokativliyin ifadəsində sintaktik vasitələr xüsusi yer tutur. Bu vasitələr atributiv, obyekt və zərflik birləşmələrin, eləcə də sadə cümlələr (təktərkibli və cüttərkibli), həmçinin yer budaq cümlələrinin elə hissəsini əhatə edir ki, onlar lokativ mənanı ötürsün. Özünün predmet və ya hadisənin mövcudluğuna işarə etməsinə baxmayaraq

bu vasitələr bu və ya başqa dərəcədə məkan seminə malik olurlar. Sadə cümlənin semantik, eləcə də məntiqi propozisiya əsasında formalaşması sadə cümlədə hadisə propozisiyası (məkani, aksional və stataya) aşkara çıxır.

10. Azərbaycan dilinin hal və qoşmalı məkan formalarına ingilis dilinin önlüklü konstruksiyaları uyğun gəlir. Bu konstruksiyalar obyektin yerləşmə yerini göstərir. Həmin prosesdə bütün fəaliyyət ərzində məkan xarakteristikaları dəyişməz qalır. Lokallaşma zamanı təsvir olunan obyektlə oriyentirin qarşılıqlı yerləşməsi eyni cür qalır. Azərbaycan dilində zərflik, zərf, feili bağlama, feili bağlama tərkibi, məkani halların şəkilçisini qəbul etmiş isim, qoşmalı feili sifət məkan ifadə edir. İngilis dilində məkanı bildirmədə zərfliklər zərf, feili sifət, önlüklü isim, məsdər, önlüklü cerundla ifadəsini tapır.

11. Azərbaycan dilində ümumi məkanın üməyyən ətrafları zərflə ifadə edilir (yaxın, uzaq, kənar, ətraf və s.). İngilis dilində ümumi məkanı belə zonalara ayrıma yoxdur, dilin daşıyıcısı bu halda oriyentirlə müqayisəni, müşahidəçidən olan istiqaməti əsas götürür. Azərbaycan dilində məkanın həm şaquli, həm üfüqi təsəvvürləri dildə ifadəsini tapır. İngilis dilində bu xüsusiyyət yoxdur.

Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi məqalələri və elmi konfranslarda etdiyi məruzələrin materiallarında əks olunmuşdur:

1. Müxtəlifsistemli dillərdə funksional-semantik məkan sahəsi məsələsi // Gənc alimlərin II Beynəlxalq elmi konfransının materialları, – Gəncə: Gəncə Dövlət Universiteti, – 26-27 oktyabr, – 2017, – s.320-321.
2. Mətnin məkan münasibətləri sistemi // Gənc alimlərin III Beynəlxalq elmi konfransının materialları, – Gəncə: Gəncə Dövlət Universiteti,– 17-18 oktyabr, – 2018, – s.39-41.
3. İngilis dilində məkanın sözönülü sintaktik konstruksiyalarla ifadəsi və onların Azərbaycan dilində qarşılıqları // – Bakı: Azərbaycan Dillər Universiteti, Dil və ədəbiyyat, – 2020. X c. №3, – s.72-79.

4. İngilis və Azərbaycan dillərində məkan mənalı leksik vahidlər // – Bakı: Azərbaycan Dövlət Pedaqoji Universiteti, Linqvistika problemləri. Beynəlxalq elmi jurnal, – 2021. 2 c. №2, – s.190-197.
5. Dildə məkan-zaman və hərəkət vəhdəti // – Bakı: Terminologiya məsələləri, – 2021. №2, – s.123-127.
6. Spatial Functional-semantic field in the English and the Azerbaijani Languages // – Drohobych, Ukraine, Humanities Science Current İssues, Interuniversity collection of Drohobych İvan Franco State Pedagogical University Young Scientists Research Papers, – 2021. Issue 39, Vol.2, – p.157-163.
7. İngilis və Azərbaycan dillərində hal və hərəkətin məkan parametrlərinin feillərlə ifadəsi // – Bakı: BSU, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi, – 2021. №3, – s.60-66.
8. Müxtəlifsistemli dillərdə məkanın sintaktik ifadə vasitələri // – Bakı: Bakı Qızlar Universitetinin Elmi Əsərləri, – 2021. №3(47), – s.75-80.
9. Средства реализации концептов пространства и движения в Азербайджанском и английском языках // Культурология, филология, искусствоведение: Актуальные проблемы современной науки. Сборник статей по материалам XLVII Международной научно-практической конференции, – Новосибирск, – июнь, – 2021, – с.73-78.
10. Dildə məkan konseptinin sözönülərlə ifadəsi // “Türkdilli xalqların elmi-mədəni əlaqələri müasir mərhələdə: tarixi ənənə və perspektivlər” Respublika elmi konfransı, ADPU-nun Şamaxı filialı, – Şamaxı: – 29-30 oktyabr, – 2021, – s.281-285.
11. İngilis və Azərbaycan dillərində zaman və məkan konseptinin frazeoloji vahidlərdə əksi // – Bakı: Azərbaycan Dillər Universiteti, Dil və ədəbiyyat, – 2022. XII c. №2, – s.74-79.
12. Məkan və zaman kateqoriyalarının linqvistik aspektdən təhlili // – Xarici dillərin tədrisinin aktual problemləri. Respublika elmi-praktik konfransının tezislər toplusu, – Bakı: Azərbaycan Dillər Universiteti, – 23 dekabr, – 2022, – s.96.

13. Müxtəlifsistemli dillərin leksikasında məkan və zaman vəhdəti // Dialogue of Sciences and Cultures in the Modern World. The XXXIII İnternational Scientific Symposium, – Bishkek/ Kyrgyzstan: – December 24, – 2022, – s.64-66.
14. Fəlsəfədə və dilçilikdə məkan anlayışı // – Bakı: Bakı Qızlar Universiteti. Elmi Əsərlər, – 2023. №4(56), – s.33-38.
15. İngilis və Azərbaycan dillərində vertikal istiqamətli hərəkət modellərinin semantik təhlili // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu. Filologiya məsələləri, – 2026. №5, – s. 179-187.
16. İngilis və Azərbaycan dillərində istiqamət və məkan bildirən feillərin semantik xüsusiyyətləri // – Bakı: BSU, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi, – 2026. №3, – s.102-108.



Dissertasiyanın müdafiəsi 30 noyabr 2026-cı il tarixində saat 14.00 Bakı Slavyan Universiteti nəzdində fəaliyyət göstərən FD 2.13 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1014, Bakı şəhəri, Süleyman Rüstəm küçəsi, 33

Dissertasiya ilə Bakı Slavyan Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Bakı Slavyan Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 30 oktyabr 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 23.10.2026

Kağızın formatı: A5

Həcm: 40243 işarə

Tiraj: 100 nüsxə